STATE TOURISM AGENCY OF
THE REPUBLIC OF AZERBAIJAN

e-mail: info@tourism.gov.az
phone: +994 12 4928713

# Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyində olan qoruqların ərazisində foto, video və kino çəkilişlərinin aparılmasına dair qaydalar

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin (bundan sonra – Agentlik) tabeliyində olan qoruqların (bundan sonra – Qoruq) ərazisində foto/ video-çarx ( xüsusi hallarda: Qoruq ərazisində qeyri-iş saatlarında çəkilişlərin təşkili, çəkiliş üçün xüsusi texniki və dizayn avadanlıqlarının quraşdırılması, habelə, çəkiliş səhnəsinin təşkili hallarında) və kino məhsullarının, o cümlədən bədii və sənədli filmlər, teleseriallar, əyləncəli proqramlar, musiqi klipləri, reklam çarxları, əyləncə xarakterli foto/video, nəşr buraxılışlarının istehsalı üçün həyata keçirilən çəkilişlər **kommersiya** xarakterli hesab edilir və bu Qaydaların 1 nömrəli Əlavəsində müəyyən edilmiş tariflə tənzimlənir.

1.2. Qoruqla və ya Qoruq ərazisində baş verən hadisə ilə əlaqədar ictimaiyyəti məlumatlandırmaq üçün həyata keçirilən xəbər, habelə uşaq, elmi-kütləvi, mədəni-maarif və dini proqram və verilişlərinin çəkilişləri **qeyri-kommersiya** xarakterli çəkilişlər hesab edilir, xidmət üçün rüsum tətbiq olunmur.

1.3. Bu Qaydalar Qoruq ərazisində yerləşən abidələrin həvəskar, o cümlədən, turistlərin yalnız **mobil telefonun kamerası və əl kamera apparatı** ilə aparılan çəkilişlərinə şamil olunmur və ödəniş tələb edilmir.

## 2. Çəkilişin aparılması şərtləri

2.1. Xəbər proqramları üçün çəkilişlər Agentliyi məlumatlandırmaqla həyata keçirilir. Bu halda çəkilişin aparılmasını planlaşdıran teleşirkətin səlahiyyətli nümayəndəsi çəkilişə başlamazdan azı 1 gün əvvəl Agentlik ilə əlaqə saxlamalı və çəkilişin məqsədləri barədə məlumat verməlidir.

2.2. Çəkilişlərin aparılmasına icazə Agentlik tərəfindən verilir. Çəkiliş zamanı müvafiq Qoruğun nümayəndələri çəkiliş qrupunu müşayiət etməlidirlər. İcazə üçün müraciət ərizəsi (Əlavə 1) e-mail vasitəsi ilə Dövlət Turizm Agentliyinə təqdim edilməlidir. E-mail adresi: info@tourism.gov.az

E-mail mövzusu: “ XX qoruğu ərazisində foto/video çarx çəkilişinə icazə üçün müraciər ərizəsi”

Agentlik müraciətə dair rəy və təkliflərini 5 iş (beş) günü müddətində təqdim etməlidir.

2.3. İş vaxtı bitdikdən sonra və ya istirahət günlərində çəkilişin aparılmasını planlaşdıran şirkət və ya şəxs çəkilişə başlamazdan azı 1 saat əvvəl Qoruğun ərazidəki mühafizə xidmətinin əməkdaşına şifahi məlumat verməlidir və ya bunu müraciət ərizəsində xüsusi qeyd etməlidir. Şifahi xəbərdarlıqla bağlı xidmətdə olan əməkdaş bu barədə öz rəhbərini, rəhbər isə Agentliyi məlumatlandırmalı və onun göstərişlərini gözləməlidir.

2.4. Digər qeyri-kommersiya və kommersiya çəkilişləri Agentliyin rəsmi icazə sənədi əsasında aparılır.

2.5. Müraciət ərizəsində aşağıdakılar göstərilməlidir:

- Fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı;
- Hüquqi şəxsin tam adı, ünvanı, rəhbər şəxsin soyadı, adı, atasının adı;
- Çəkilişin məqsədi, süjetin mövzusu (ssenari);
- Çəkilişin aparılması tarixi, vaxtı və davamlılığı;
- Çəkilişin aparılması üçün nəzərdə tutulan yerlər;
- Çəkiliş qrupunun tərkibi barədə məlumat;

e-mail: info@tourism.gov.az
phone: +994 12 4928713

- Avadanlığın siyahısı;
- Çəkiliş aparılması ilə əlaqədar Qoruq ərazisinə daxil olması tələb olunan nəqliyyat vasitələrinin sayı və dövlət qeydiyyat nişanları;
- Məsul şəxslə əlaqə üçün məlumat.

2.6. Ərizə baxılmaq üçün Agentliyə verilir. Agentlik müraciətə dair rəy və təkliflərini 5 iş (beş) günü müddətində təqdim etməlidir.

2.7. Agentliyin tabeliyində olan Qoruq ərazisindən və burada yerləşən abidələrdən kommersiya xarakterli çəkilişlərin aparılması üçün istifadə olunması nəzərdə tutulduqda Agentliklə müqavilə bağlanmalıdır.

2.8. Çəkilişlərin icazə verilmiş mövzuya uyğun aparılmasına müvafiq Qoruq tərəfindən nəzarət olunur.

2.9. Çəkiliş aparılarkən Qoruq sakinlərinin gündəlik həyat tərzi və/və ya burada yerləşən qurumların fəaliyyət ahəngi pozulmamalıdır.

2.10. Ərazidə çəkilişlərin aparılması ilə əlaqədar olaraq abidələrin üzərində texniki vasitələrin yerləşdirilməsi və ya abidələrin zədələnməsinə səbəb ola bilən hər hansı hərəkət yolverilməzdir.

### *3. Çəkilişə icazə verilməsindən imtina və çəkilişin dayandırılması halları*

3.1. Aşağıdakı hallarda Agentliik çəkilişə icazə verilməsindən imtina edə və ya çəkilişin aparılmasını dayandıra bilər:

- çəkiliş üçün ərizənin verilməsi qaydaları pozulduqda və ya məlumatlar natamam olduqda;
- çəkilişin aparılması Qoruq sakinlərinin gündəlik həyat tərzinin və/və ya burada yerləşən qurumların fəaliyyət ahəngini əhəmiyyətli dərəcədə pozmaq ehtimalı yaratdıqda;
- kommersiya xarakterli çəkilişlər üçün müvafiq müqavilə bağlanmadıqda;
- çəkiliş ictimai asayişin və əxlaq normalarının pozulması halları ilə müşayiət edildikdə və bununla bağlı çəkiliş qrupuna edilmiş xəbərdarlıq nəticə vermədikdə;
- çəkilişlərin aparılması zamanı çəkilişin verilmiş icazə sənədinə uyğun olaraq aparılmadığı barədə çəkiliş qrupuna edilmiş xəbərdarlıq nəticə vermədikdə;
- Qoruq ərazisində həmin vaxt dövlət tədbirlərin keçirilməsi və ya çəkilişin aparılması nəzərdə tutulan sahədə təcili təmir işlərinin görülməsinə zərurət yarandıqda,
- xəbər proqramları üçün çəkilişlərlə bağlı Agentlik bu Qaydalarda nəzərdə tutulmuş qaydada məlumatlandırılmadıqda.

STATE TOURISM AGENCY OF
THE REPUBLIC OF AZERBAIJAN

e-mail: info@tourism.gov.az
phone: +994 12 4928713

Əlavə: 1

## Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyində olan qoruqların ərazisində foto, video və kino çəkilişlərinin aparılmasına dair Qaydalara 1 nömrəli Əlavə

Tariflər

| Kommersiya çəkilişləri | Xidmət | Tarif (AZN) | |
|---|---|---|---|
| Kino; bədii filmlər; sənədli filmlər, teleseriallar, kütləvi və əyləncəli televiziya proqramları, musiqi klipləri, reklam, əyləncə xarakterli nəşr buraxılışları | 1 çəkiliş günü üçün | “Yanar dağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu<br><br>“Ateşgah məbədi” Dövlət Tarix-Memarlıq Qoruğu<br><br>“Yuxarı Baş” Dövlət Tarix-Memarlıq Qoruğunda Şəki Xan Sarayı | 520 AZN |
| | | “Basqal” Dövlət Tarix-Mədəniyyət Qoruğu,<br><br>“Xınalıq” Dövlət Tarix Memarlıq və Etnoqrafiya Qoruğu,<br><br>“Lahıc” Dövlət Tarix-Mədəniyyət Qoruğu,<br><br>“Yuxarı Baş” Dövlət Tarix-Memarlıq Qoruğu (Şəki şəhəri “Karvansaray” Mehmanxana Kompleksi daxil olmaqla)<br><br>“Kiş” Tarix-Memarlıq Qoruğu | 240 AZN |
| Foto/video-çarx (əlavə xidmət hallarında); | 1 çəkiliş günü üçün | “Yanar dağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu<br><br>“Ateşgah məbədi” Dövlət Tarix-Memarlıq Qoruğu<br><br>“Basqal” Dövlət Tarix-Mədəniyyət Qoruğu,<br><br>“Xınalıq” Dövlət Tarix Memarlıq və Etnoqrafiya Qoruğu,<br><br>“Lahıc” Dövlət Tarix-Mədəniyyət Qoruğu,<br><br>“Yuxarı Baş” Dövlət Tarix-Memarlıq Qoruğu (Şəki şəhəri “Karvansaray” Mehmanxana Kompleksi daxil olmaqla)<br><br>“Kiş” Tarix-Memarlıq Qoruğu | 240 AZN |
| **Qeyri-Kommersiya çəkilişləri** | | | |
| Xəbər; elmi, mədəni-maarif və dini proqramlar | | Ödənişdən azad | |

STATE TOURISM AGENCY OF
THE REPUBLIC OF AZERBAIJAN

e-mail: info@tourism.gov.az
phone: +994 12 4928713

Əlavə 2:

Müraciət forması:

| Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyində olan qoruqların ərazisində foto, video və kino çəkilişlərinin aparılmasına dair müraciət forması | |
|---|---|
| Foto və çəkilişin növü | "1 nömrəli Əlavə"yə istinadla: Kommersiya<br>Qeyri-kommersiya |
| Müraciət edən şəxsin soyadı və adı | |
| Müraciət edən şəxsin əlaqə məlumatları | e-mail:<br>Tel: |
| Müraciət edən şəxs barədə məlumat ( şəxsi təcrübə) | |
| Qanuni müəssəsə/ şirkətin tam adı və adresi | Ad/Soyad:<br>Ünvan: |
| Qanuni müəssəsə /şirkətin məsul şəxsinin adı, soyadı | |
| Məsul şəxs barədə məlumat (şəxsi təcrübə) | |
| Çəkilişin məqsədi, süjetin mövzusu və ssenarisi | |
| Çəkilişin aparılma tarixi, vaxtı və davamlılığı | |
| Çəkilişin aparılması üçün nəzərdə tutulan yerlər | |
| Avadanlığın siyahısı | |
| Çəkiliş qrupunun tərkibi barədə məlumat | Neçə şəxs istirak edəcək?<br>Müsahibə tələbi varmı? |
| Çəkiliş aparılması üçün Qoruq ərazisinə daxil olması tələb olunan nəqliyyat vasitələrinin sayı və dövlət qeydiyyat nişanları | |

Ödəniş qaydaları:

Ödənişi nəğd və köçürmə yolu ilə qəbul edilir.